Partnership for Good Governance

EUROPEAN UNION

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

# Avropa Şurası və Avropa İttifaqının Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramı çərçivəsində həyata keçirilən regional layihələrin nəticələri[1]

## Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq nədir?

2014-cü ilin aprel ayında Avropa İttifaqı və Avropa Şurası Aİ-nin Şərq Tərəfdaşlığı proqramına daxil olan ölkələri (Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova Respublikası və Ukrayna) insan hüquqları, demokratiya və qanunun aliliyi sahələrində Avropa standartlarına daha da yaxınlaşdırmaq üçün həmin ölkələrlə məqsədyönlü əməkdaşlıq fəaliyyətlərinin həyata keçirilməsi barədə razılığa gəlmişdir. Yaxşı İdarəçilik üçünTərəfdaşlıq proqramı çərçivəsindəki layihələr başlıca olaraq Aİ tərəfindən maliyyələşdirilir, Avropa Şurası tərəfindən isə birgə maliyyələşdirilərək icra olunur.

Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramı çərçivəsində həyata keçirilən regional layihələr altı ölkədən olan iştirakçıları həmkarlararası əsasda bir araya gətirməklə, başlıca olaraq Aİ tərəfindən maliyyələşdirilir və Avropa Şurası tərəfindən maliyyələşdirilərək həyata keçirilir.

Belarus istisna olmaqla, Şərq Tərəfdaşlığına daxil olan bütün ölkələr Avropa Şurasının üzv dövlətləridir.

## Şərq Tərəfdaşlığı ölkələrində məhkəmə islahatları üzrə regional dialoq

Bu regional layihə Şərq Tərəfdaşlığı ölkələrində gələcək ədliyyə islahatları üçün müsbət dinamika yaratmaqla yanaşı, həmin ölkələrin nümayəndələrinin Avropa standartları barədə biliklərini artırmışdır. Həmkarlararası dialoq hakimlər, prokurorlar, ədliyyə nazirliklərinin nümayəndələri və vəkillər kollegiyaları arasında əməkdaşlıq və şəbəkələşməni gücləndirmişdir.

Əsas çağırışlar və qabaqcıl təcrübələr müəyyən edilmiş və aşağıda qeyd olunan konkret sahələrlə bağlı milli ədliyyə islahatlarına dair tövsiyələr verilmişdir: hakimlərin müstəqilliyi, etik davranış qaydaları, intizam məsuliyyəti, onların seçilməsi, qiymətləndirilməsi və toxunulmazlığı; hüquqi yardım; işlərin səmərəli bölüşdürülməsi; ədliyyə sistemlərində informasiya texnologiyaları alətlərindən istifadə; və mübahisələrin alternativ həlli mexanizmləri. Aparılmış mübadilə tədbirlərinin nəticələrinə əsaslanaraq, ölkələrin təcrübələri işçi qrupun hesabatlarında əks etdirilmişdir.

[1] Daha əvvəl Avropa Şurası və Avropa İttifaqının Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova Respublikası və Ukrayna üçün Proqramlı Əməkdaşlıq Çərçivəsi kimi tanınmışdır

► Bu layihə barədə məlumat bülleteninə keçid

## Konstitusion ədalət mühakiməsinin gücləndirilməsi

Venesiya Komissiyası tərəfindən həyata keçirilən bu layihə Şərq Tərəfdaşlığı ölkələrində konstitusiya məhkəmələri arasında həmkarlararası şəbəkələşmənin gücləndirilməsi və qanunvericiliyin yenidən nəzərdən keçirilməsi yolu ilə Şərq Tərəfdaşlığı ölkələrində konstitusion prosesi dəstəkləyərək, milli qanunvericiliyin və praktikanın konstitusion ədalət mühakiməsinə dair Avropa standartlarına uyğunluğunun daha da artırılmasını təmin etmişdir. Avropa Şurasının bir sıra tövsiyələrini konstitusion qanunvericilikdə nəzərə almaqla, beş ölkədə qanunvericiliyə baxış keçirilmişdir:

- Gürcüstanın konstitusiya məhkəməsinə və konstitusiya məhkəməsi icraatına dair Venesiya Komissiyasının tövsiyələri nəzərə alınmaqla dəyişikliklər edilmiş qanunları 2016-cı ildə qüvvəyə minmişdir;
- Moldovanın Konstitusiya Məhkəməsi üçüncü tərəf (amicus curiae) rəylərindəki tövsiyələrin çoxunu nəzərə almaqla “Hakimiyyət nümayəndəsi haqqında” Qanunun 27-ci maddəsinin konstitusiyaya uyğunluğu barədə qərar çıxarmışdır;
- Ukrayna Avropa Şurasının bir çox tövsiyələrini öz konstitusiya qanunvericiliyinə daxil etmişdir.

Konstitusiya məhkəməsi hakimləri konstitusiya məhkəmələri arasında həmkarlararası şəbəkələşməni möhkəmləndirərək konstitusion ədalət mühakiməsi ilə bağlı şəraiti təhlil etmək üçün çoxtərəfli forumlar çərçivəsində görüşlər keçirmiş, konstitusiya məhkəmələrinin üzləşdikləri cari problemlərin həlli ilə bağlı fikir mübadiləsi aparmışdırlar. CODICES məlumat bazası konstitusiya məhkəmələrinin qərarlarında xarici və beynəlxalq hüquqa istinadların toplanması üçün mexanizm təmin etməklə konstitusiya məhkəmələrinin müstəqilliyinin təşviqində mühüm rol oynayır. CODICES məlumat bazası 2016-cı ildə daha da təkmilləşdirilərək, Şərq Tərəfdaşlığı ölkələrinin konstitusiya məhkəmələri üçün digər yurisdiksiyaların qərarlarına daha asan çıxışı təmin etmişdir.

► Bu layihə barədə məlumat bülleteninə keçid

## Zorakılıqdan zərər çəkmiş qadınlar üçün ədalət mühakiməsinə çıxışın gücləndirilməsi

2018-ci ildə həyata keçirilən layihə Şərq Tərəfdaşlığı ölkələrində hüquqşünaslar üçün resursların işlənib hazırlanmasını və zorakılıqdan zərər çəkmiş qadınlara xüsusi diqqət yetirməklə qadınların ədalət mühakiməsinə çıxışına dair Avropa Şurası standartlarının və qabaqcıl təcrübələrinin tətbiqinə dəstək verilməsini davam etdirir. Belə resurslardan biri "Avropa Şurasının hüquqşünaslar üçün insan hüquqları sahəsində Təhsil Proqramı" çərçivəsində yaradılmış, qadınların ədalət mühakiməsinə çıxışından bəhs edən və "Qadınların ədalət mühakiməsinə çıxışının təmin olunmasına dair hakimlər və prokurorlar üçün Təlim Vəsaiti"nə əsaslanan onlayn elektron təhsil kursudur. Hədəf auditoriyası hakimlər, prokurorlar və vəkillərdən ibarət olacaq kurs gender stereotipləri və qadınlara qarşı zorakılıq daxil olmaqla ədliyyə sistemində gender amilinin nəzərə alınması məsələlərindən bəhs edəcək.

Hüquq təhsili verən milli təhsil müəssisələrinin sərəncamında gender məsələlərinin nəzərə alındığı daha çox materialların mövcud olmasına kömək etmək məqsədilə, Avropa Şurasının seçilmiş standartları, habelə qadınlar üçün ədalət mühakiməsinə çıxış və qadınlara qarşı zorakılığa dair hesabatlar və ya sənədlər layihə tərəfindən yerli dillərə tərcümə edilmişdir. Bu tərcümələr hakim və prokurorlar üçün təlim kurrikulumuna əlavə

rolunu oynayacaq, habelə qadınların ədalət mühakiməsinə çıxışı və İstanbul Konvensiyası üzrə müvafiq standartlar və qabaqcıl təcrübələr barədə maarifləndirmə aparılması məqsədilə hüquqşünaslar arasında geniş şəkildə paylanacaq. Ədalət mühakiməsinə çıxış və qadınlara qarşı geniş vüsət almış zorakılıq halları arasındakı əlaqə barədə məlumatlılığın artırılması məqsədilə İstanbul Konvensiyasının ədalət mühakiməsinə çıxışa dair standartlarının qısa xülasəsini təqdim edən məlumat bülleteni hazırlanaraq hüquqşünaslar arasında geniş şəkildə paylanır. "Zorakılıqdan zərər çəkmiş qadınlar üçün ədalət mühakiməsinə çıxış" mövzusuna həsr edilmiş regional konfransda digər məsələlərlə yanaşı İstanbul Konvensiyasının ratifikasiyası və tətbiqi üzrə əldə edilmiş irəliləyiş nəzərdən keçiriləcək, mövcud problemlərə dair fikir mübadiləsi aparılacaq və Şərq Tərəfdaşlığı ölkələri üçün növbəti tədbirlər müəyyən ediləcəkdir.

► Bu layihə barədə məlumat bülleteninə keçid

## Qərarların qəbulu prosesində vətəndaşların iştirakı

Layihə qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün mühitin yaxşılaşdırılması, onların demokratik qərar qəbulu prosesində fəal iştirakı üçün mexanizmlərin yaradılması və vətəndaş iştirakçılığı mədəniyyətinin təşviq edilməsi məqsədilə altı ölkədə vətəndaş cəmiyyəti və hakimiyyət orqanları arasında regional əməkdaşlığı möhkəmləndirmişdir. Mövcud qanunların və siyasətlərin geniş tədqiqi və təhlili[2] nəticəsində hakimiyyət orqanları ilə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqə və məsləhətləşmələr üçün ən effektiv mexanizmləri göstərən vacib praktiki biliklər əldə olunmuşdur. Ortaq və oxşar problemlərin həlli yollarının axtarılması məqsədilə həm dövlət orqanlarının, həm də qeyri-hökumət təşkilatlarının töhfəsi və birgə səyləri ilə regional səviyyədə çoxsaylı maraqlı tərəfləri əhatə edən qeyri-rəsmi şəbəkə yaradılmışdır.

► Bu layihə barədə məlumat bülleteninə keçid

## İnsan hüquqları sahəsində təhsilin və demokratik vətəndaşlığın təşviqi

Layihə çərçivəsində ölkələrə demokratik vətəndaşlıq təhsilini və insan hüquqları təhsilini (EDC/HRE) öz milli təhsil sistemlərinə daxil etməkdə və onları daha da inkişaf etdirməkdə dəstək verilmişdir. Layihə vasitəsilə EDC/HRE-nin əsas prinsipləri barədə siyasət səviyyəsində maarifləndirmə aparılmış və Avropa Şurasının "Demokratik Vətəndaşlıq və İnsan Hüquqları Təhsili Xartiyası"nın praktiki tətbiqinə töhfə verilmişdir. Layihə ayrı-ayrılıqda hər bir ölkədə müvafiq tədbirlərin görülməsi üçün orientir və katalizator rolunu oynamış, regional səviyyədə isə qabaqcıl təcrübənin yayılmasına və Avropa standartlarına doğru irəliləyişin artırılmasına kömək etmişdir.

Milli səviyyədə əldə edilmiş nəticələrə bir sıra müsbət irəliləyişlər, məsələn təhsil mütəxəssisləri üçün EDC/HRE ilə bağlı potensialın artırılması proqramlarının işlənib hazırlanması; öz biliklərini həmkarlarına ötürə biləcək milli təlimçilər bazasının təşkili; EDC/HRE prinsiplərinin məktəb kurrikulumlarına və tədris təcrübələrinə inteqrasiyası; müvafiq EDC/HRE nəşrlərinin tərcüməsi və EDC/HRE prinsipləri barədə maarifləndirmə aparılması; 230 əsas termin və onların milli dillərə tərcümələrinin yer aldığı EDC/HRE izahlı lüğətinin hazırlanması daxildir.

---

[2] Şərq Tərəfdaşlığı ölkələrində qərar qəbulu prosesində vətəndaşların iştirakı. Birinci hissə: Qanunlar və siyasətlər
Şərq Tərəfdaşlığı ölkələrində qərar qəbulu prosesində vətəndaşların iştirakı. İkinci hissə: Təcrübə və tətbiq
Şərq Tərəfdaşlığı ölkələrində qərar qəbulu prosesində vətəndaş iştirakçılığının strateji inkişafı ilə bağlı tədbirlər

Bütün ölkələrdə siyasət səviyyəsində, xüsusilə də kurrikulumların yenidən nəzərdən keçirilməsi ilə bağlı əhəmiyyətli təsir müşahidə olunmuşdur. Eyni zamanda, bütün ölkələrdə təhsil siyasəti səviyyəsində əhəmiyyətli təsir qeydə alınmışdır. Ermənistanda, EDC/HRE prinsiplərinin kurrikulumlara daha yaxşı inteqrasiya edilməsi məqsədilə müəllimlər üçün təlimatlar işlənib hazırlanmışdır. Azərbaycanda məktəb direktorları üçün əsas diqqəti Avropa Şurasının "Demokratik Mədəniyyət üçün Bacarıqlar Çərçivəsi"nə yetirən (DMB Çərçivəsi) yeni təlim proqramı işlənib hazırlanmışdır. Belarusda əsas diqqət təhsil sahəsində bacarıqlara əsaslanan yanaşmaya yönəldilmiş və Avropa Şurasının DMB Çərçivəsinin elementləri dəyişilmiş məktəb kurrikulumlarına daxil edilmişdir. Gürcüstanda EDC/HRE müddəalarının əhatə edilməsi üçün universitetlərdə 15 yeni kurs yaradılmış və ya dəyişdirilmişdir. Moldova Respublikasında Təhsil Nazirliyi yeni təkmilləşdirilmiş məktəb kurrikulumuna insan hüquqları təhsilinin inteqrasiya edilməsi ilə bağlı ekspert məsləhəti almışdır. İxtisasartırma təlimi modullarından ibarət 30 tədris proqramını özündə ehtiva edən təlimçi paketi hazırlanmışdır. Ukraynada, Ukrayna Təhsil və Elm Nazirliyinin müraciəti əsasında "EDC/HRE-nin fənlər üzrə kurrikuluma inteqrasiya edilməsinə və yeni Ukrayna məktəbinin standartlarına dair Strategiya" işlənib hazırlanmış və yeni orta təhsil standartlarının hazırlanmasına öz töhfəsini vermişdir.

Layihənin əldə etdiyi əsas nəticəyə təhsil mütəxəssisləri üçün potensialın yaradılması yolu ilə nail olunmuşdur. Avropa Şurasının ekspertləri mili prioritetlərin sistematik icrasına dəstək məqsədi daşıyan altı çoxpilləli təlim modeli işləyib hazırlamışdır. Layihənin icrasının gedişində, altı ölkədə 260 təhsil mütəxəssisi (birbaşa iştirakçılar) üçün təlimlər keçirilmişdir. Bütün təlim iştirakçıları müəllimlərin xidmətəqədərki və ya ixtisasartırma təlimi sistemləri vasitəsilə müəllimlərlə daim birbaşa əlaqədə olan təhsil mütəxəssislərindən ibarət olmuşdur. Bu fakt yeniliklərin geniş yayılmasını, layihə nəticələrinin davamlı olmasını və EDC/HRE yanaşmasının təhsil sistemlərinə təbii şəkildə inteqrasiyasını təmin etmişdir. Təxmini hesablamalara görə, çoxpilləli təlimlər, pilot sessiyalar və maarifləndirici tədbirlər ümumilikdə ən azı 8500 şəxsi əhatə etmişdir.

Bu layihənin başa çatmasından sonra, işlərin icrası hakimiyyət orqanları tərəfindən milli səviyyədə davam etdirilir. Yan təsirlərdən biri Moldova Respublikasının Təhsil və Elm Naziri tərəfindən EDC/HRE sahəsində kurrikulum islahatı üzrə ekspert dəstəyinin göstərilməsi üçün Avropa Şurasına müraciət edilməsi və bunun davamı olacaq layihə ilə bağlı danışıqların aparılmasıdır.

► Bu layihə barədə məlumat bülleteninə keçid

## Penitensiar islahatların təşviqi: cəzalandırma yanaşmasından reabilitasiya yanaşmasına keçid

Bu regional layihə Ermənistan, Gürcüstan, Moldova Respublikası və Ukraynanı həbsxanalarda məhbus sıxlığını azaltmaq məqsədi daşıyan siyasətlərin tətbiqinə dair strateji məsləhətlərlə təmin etmişdir. Bir ölkədə effektivliyi sübut olunmuş tədbirlər digər ölkələr üçün ilham mənbəyi rolunu oynaya bilər. Layihə məhbus sıxlığını aradan qaldırmağın ən yaxşı yolları barədə dörd Şərq Tərəfdaşlığı ölkəsindən olan yüksək vəzifəli məmurlar və işçilər arasında təcrübə mübadiləsi üçün forum yaratmaqla regional əməkdaşlığı gücləndirmişdir. Bəzi ölkələr tərəfindən məhbus sıxlığı probleminin mövcud olmasının etiraf edilməsi və bu problemin müəyyən dərəcədə həlli sıxlıq məsələsinə hələ ki lazımi diqqətin ayrılmadığı ölkələrdə regional əməkdaşlıq və təcrübə mübadiləsi istəklərini artırmışdır. Müntəzəm beynəlxalq və regional mübadilələr əsasında, cəzaçəkmə müəssisələrində sıxlığın aradan qaldırılmasına dair tədbirlərlə bağlı konkret ölkələrə ünvanlanan təklifləri özündə əks etdirən hesabatlar hazırlanmışdır. Layihə 2015-ci ilin avqust ayından 2016-cı ilin iyun ayına qədər həyata keçirilmişdir.

► Bu layihə barədə məlumat bülleteninə keçid

## Cəzaçəkmə müəssisələrində narkotik asılılığına qarşı cinayət-hüquqi tədbirlər

Pompidu Qrupunun - narkotiklərin zərərli məqsədlərlə istifadəsi və qeyri-qanuni ticarətinə qarşı mübarizə üzrə Əməkdaşlıq Qrupunun bu regional layihəsi çərçivəsində Ermənistan, Gürcüstan, Moldova Respublikası və Ukraynada həbsxanalarda məhbus sıxlığına, azadlıqdan məhrumetməyə alternativ olan tədbirlərə və narkomaniyanın reabilitasiyasına dair qabaqcıl təcrübələr üzrə regional əməkdaşlıq qurulmuşdur. Layihə vasitəsilə Gürcüstanın dövlət siyasətlərinin hazırlanması üzrə məsul şəxslərinə həbsxanalarda məhbus sıxlığı və cəzalandırmaya alternativ olan tədbirlər üzrə Avropa standartlarına uyğun olan milli siyasətlərin işlənib hazırlanmasında dəstək verilmişdir. Layihə çərçivəsində Ukraynada azyaşlıların saxlanıldığı iki cəzaçəkmə müəssisəsində terapevtik vasitələrin, o cümlədən ailə terapiyasının və risk qiymətləndirmə metodologiyalarının təkmilləşdirilməsində cəzaçəkmə müəssisələrinin rəhbərliyinə köməklik göstərilmişdir. Ermənistanda, beynəlxalq mütəxəssislərlə aparılmış peşəkar təcrübə mübadiləsi cəzaçəkmə müəssisələrində zərərin azaldılması xidmətlərinin, narkomaniyanın müalicəsi proqramlarının və İİV virusunun qarşısının alınması fəaliyyətlərinin yaxşılaşmasına gətirib çıxarmışdır. Bundan başqa, layihə Moldovanın cəzaçəkmə müəssisələrində narkomaniyanın müalicəsi və reabilitasiyası xidmətlərinin gücləndirilməsinə və şaxələndirilməsinə gətirib çıxarmışdır. Həbsxana əməkdaşları və sosial işçilər üçün həbsxana şəraitində Terapevtik İcmanın necə yaradılması və idarə olunması üzrə təlim keçilmişdir. Təlimdən sonra Moldova Respublikasında bir cəzaçəkmə müəssisəsində ilk Terapevtik İcmanın yerləşdiyi həbsxana kamerasının düzəldilməsi həyata keçirilmişdir.

► Bu layihə barədə məlumat bülleteninə keçid

## Korrupsiya və çirkli pulların yuyulması ilə mübarizə və yaxşı idarəçiliyin dəstəklənməsi

Layihə Şərq Tərəfdaşlığı ölkələrinə korrupsiya və çirkli pulların yuyulmasına qarşı mübarizə üzrə institusional bacarıqlarının gücləndirilməsində dəstək vermişdir. Layihə bütün altı Şərq Tərəfdaşlığı ölkəsinin iştirakı ilə qabaqcıl təcrübə və transsərhəd əməkdaşlıq sahəsində regional mübadilələri daha da gücləndirmişdir. Layihə regional və pilot ölkə fəaliyyətlərini özündə birləşdirərək, Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramı çərçivəsində icra olunan ölkələr üzrə xüsusi layihələr üçün tamamlayıcı rolunu oynayır. Regional səviyyədə, Avropa Şurasının texniki yardımı sayəsində Şərq Tərəfdaşlığı ölkələrinin milli hakimiyyət orqanları maraqların toqquşması, ifşaçıların (qanun pozuntusu barədə məlumat verənlərin) qorunması, dürüstlüyün yoxlanılması, hüquqi şəxslərin məsuliyyəti, lobbiçilik və qanunvericiliyin korrupsiya ilə mübarizə aspektindən qiymətləndirilməsi sahələri ilə bağlı qanunvericiliyə və praktikaya dair məsləhətlərlə təmin edilmişdir. Səhiyyə sektorunda (altı ölkədən beşində) və dövlət satınalmaları sektorunda (altı ölkədən dördündə) korrupsiya risklərinin qiymətləndirilməsi gələcək siyasi, normativ və təşkilati islahatların hazırlanması zamanı nəzərə alınmaq üçün milli səviyyədə korrupsiya risklərinin müəyyən edilməsinə kömək etmişdir.

Cinayət ədliyyəsi sektorunun və hüquq-mühafizə orqanlarının maliyyə təhqiqatları aparmaq, çirkli pulların yuyulmasını, terrorizmin maliyyələşdirilməsini və digər iqtisadi cinayətləri başa düşmək, ifşaçıların qorunmasını təmin etmək, xüsusi istintaq metodlarından istifadə etmək, qarşılıqlı hüquqi yardımla bağlı qeyri-rəsmi və rəsmi müraciətlərin əldə olunmasına cəhd etmək və onlarla bağlı cavab tədbiri görmək üzrə peşə vərdişləri artırılmışdır. Konkret ölkələrə aid olan ekspert rəyləri və yardımları dövlət qulluqçuları üçün korrupsiyaya qarşı mübarizə üzrə təlim proqramlarının hazırlanması (Ermənistan), dövlət xidmətləri sahəsində risklərin idarə olunması sisteminin gücləndirilməsi (Azərbaycan), Hökumətin Korrupsiyaya qarşı Mübarizə Strategiyası üzrə maarifləndirmə kampaniyasının hazırlanması (Gürcüstan) və dürüstlük, maraqların toqquşması, çirkli pulların yuyulmasına və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə və korrupsiya hüquqpozmalarına görə cəza

rejimi üzrə qanunvericiliyin Avropa Şurası və beynəlxalq standartlara yaxınlaşdırılması ilə bağlı hüquqi məsləhətlərin verilməsi (Moldova) vasitəsilə davam edən milli islahat proseslərinə öz töhfəsini vermişdir.

2018-ci ildə texniki yardım çərçivəsində əsas diqqət yetirilən sahələrə qanunsuz varlanma ilə mübarizədə müxtəlif mexanizmlərin və onların effektivliyinin daha yaxşı başa düşülməsinin təmin edilməsi, benefisiar sahiblik sahəsində şəffaflıqla bağlı beynəlxalq standartlar, müqayisəli təcrübələr və mümkün siyasi həllər barədə maarifləndirmə, korrupsiya ilə mübarizə sahəsində ixtisaslaşmış orqanların fəaliyyətinin effektivliyinin gücləndirilməsi ilə bağlı tövsiyələrin verilməsi, habelə çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsi ilə mübarizə aparan nəzarət orqanları tərəfindən effektiv nəzarətin aparılması potensialının artırılması daxildir.

## Kibercinayətkarlıq: regional, beynəlxalq və dövlət-özəl sektor əməkdaşlığına dair layihələr

Beynəlxalq əməkdaşlıq mövzusunda, Avropa Şurası beynəlxalq və regional əməkdaşlıq bacarıqlarını daha da inkişaf etdirmək məqsədilə qarşılıqlı hüquqi yardım göstərən orqanlara və fasiləsiz fəaliyyət göstərən əlaqə mərkəzlərinin əməkdaşlarına dəstək vermişdir. Layihə heyəti bütün Şərq Tərəfdaşlığı ölkələrində qarşılıqlı hüquqi yardım göstərən orqanların və fasiləsiz fəaliyyət göstərən əlaqə mərkəzlərinin əməkdaşları üçün təlim keçmiş və burada əsas diqqət praktiki əməkdaşlıq vasitələrinə və modellərinə yetirilmişdir. Layihə çərçivəsində həmçinin konkret ölkələrlə bağlı tövsiyələrə əməl edilməsini təmin etmək məqsədilə ölkələrə dəstək verilmiş və beynəlxalq əməkdaşlıq üçün onlayn resursların daha da təkmilləşdirilməsi davam etdirilmişdir. Bu isə hədəf ölkələr arasında kibercinayətkarlıq və elektron sübutlara dair məlumat mübadiləsinin artmasına kömək etmiş, habelə transmilli xidmət təchizatçıları ilə kommunikasiyanın səmərəliliyini artırmışdır.

Avropa Şurasının Kibercinayətkarlıq haqqında Konvensiyasına uyğun olaraq dövlət-özəl sektor əməkdaşlığını inkişaf etdirmək məqsədilə, Şərq Tərəfdaşlığı ölkələri Avropa Şurası tərəfindən hüquq-mühafizə orqanları və interneti xidməti provayderləri (o cümlədən, transmilli şirkətlər) arasında aparılan milli və regional dialoqa cəlb edilmişdir. Burada məqsəd cinayətlərin istintaqında məlumat və sübutlara çıxışı daha da təkmilləşdirmək olmuşdur. Bu prosesə kibercinayətkarlıq sahəsindəki strategiyalar və təhlükələr üzrə davam etməkdə olan ümum-regional tədqiqat daxil olmaqla dövlət-özəl sektor əməkdaşlığının müxtəlif mövzularına dair müxtəlif regional və beynəlxalq tədqiqatlar, habelə bu mövzu üçün xüsusi ayrılmış onlayn resursun təmin olunması vasitəsilə dəstək verilmişdir. Nəticədə, altı Şərq Tərəfdaşlığı ölkəsindən beşi hazırda öz cinayət prosessual qanunvericiliyini təkmilləşdirir, iki ölkə isə yeni əməkdaşlıq razılaşmalarının qəbulunu yaxud mövcud razılaşmaların genişləndirilməsini nəzərdən keçirir. Real vaxt rejimində həyata keçirilən regional texniki məşğələlər vasitəsilə, layihə üzrə tərəfdaşlar kompüter insidentlərinin həlli, kiber cinayətlərin araşdırılması və maliyyə monitorinqinə dair məlumatların mübadiləsi üzrə idarələrarası əməkdaşlığa dair zəruri biliklər əldə etmişdir.

► “Şərq tərəfdaşlığı - kibercinayətkarlıq II” proqramına dair məlumat bülleteninə keçid: regional və beynəlxalq əməkdaşlıq və dövlət-özəl sektor əməkdaşlığı

## Onlayn rejimdə insan hüquqlarının qorunmasına hörmətin gücləndirilməsi

Bu layihə internet idarəçiliyi sahəsində ilk əməkdaşlıq layihəsi olmuş və Şərq Tərəfdaşlığı ölkələrindən olan milli maraqlı tərəfləri fəal şəkildə internet idarəçiliyinə dair regional və qlobal müzakirələrə cəlb etmişdir. Regional aspektdə həyata keçirilən operativ tədbirlər də benefisiar ölkələrdə çoxsaylı maraqlı tərəflərin cəlb edildiyi dialoq üçün forumun yaradılması prosesini sürətləndirmiş və təşviq etmiş, habelə internet və insan hüquqları məsələlərinin dövlət siyasətlərinin hazırlanması üzrə məsul şəxslərin gündəliyinə daxil edilməsinə

nail olmuşdur. Layihə Avropa Şurasına Şərq Tərəfdaşlığı ölkələrindən olan milli maraqlı tərəflərin daha geniş qrupunu əhatə etməyə və regional təcrübə mübadilələrini təşkil etməyə imkan vermişdir.

- Altı Şərq Tərəfdaşlığı ölkəsindən olan maraqlı tərəflər internet idarəçiliyi mövzusunda aparılan qlobal və regional dialoqlarda və siyasət müzakirələrində iştirak etmişdir;
- Gürcüstan, Moldova Respublikası və Ukraynada çoxsaylı maraqlı tərəflərin cəlb olunduğu dialoq yaradılmış və gücləndirilmişdir;
- Moldova Respublikası və Gürcüstanda internet xidmət provayderlərinin Avropa Şurasının insan hüquqları sahəsindəki rəhbər prinsiplərinə dair bilik və öhdəlikləri artırılmışdır;
- Şərq Tərəfdaşlığı ölkələrində məqsədyönlü fəaliyyətlər, regional mübadilə fəaliyyətləri və təşviqat materialları vasitəsilə onlayn ifadə azadlığı, onlayn məxfilik və s. üzrə Avropa standartları haqqında dövlət və qeyri-dövlət subyektlərinin bilikləri artırılmışdır;
- Avropa Şurası standartlarının tərcüməsi və yayılması vasitəsilə Şərq Tərəfdaşlığı ölkələrində internetdə insan hüquqlarının pozulmasının qarşısının alınması və belə hallarla mübarizə barədə ictimai məlumatlılıq səviyyəsi artırılmışdır;
- Moldova Respublikası və Gürcüstanda internet və insan hüquqları üzrə Avropa Şurasının qəbul etdiyi standartlara uyğun olaraq milli siyasətlərin və qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı milli hakimiyyət orqanlarına ekspert tövsiyələri verilmişdir.

## Məlumatların qorunmasına dair milli sistemlərin hazırlanması və gücləndirilməsi

Layihə çərçivəsində hər bir Şərq Tərəfdaşlığı ölkəsinin ehtiyac və tələblərinə daha intensiv diqqət yetirmək, Avropa Şurası tərəfindən görülmüş işlərlə bağlı əlavə tədbirləri həyata keçirmək və əvvəlki nailiyyətləri daha da inkişaf etdirmək məqsədilə resurslar təmin edilmişdir. Daha qabaqcıl məlumat qoruma sistemlərinə malik olan bəzi Şərq Tərəfdaşlığı ölkələrinin əldə etdiyi irəliləyiş və nailiyyətlər (məsələn, Ukrayna və Gürcüstan) digər Şərq Tərəfdaşlığı ölkələrinin öyrənə biləcəyi model və qabaqcıl təcrübə kimi istifadə olunmuşdur. Altı Şərq Tərəfdaşlığı ölkəsi arasında əlverişli formatda faydalı mübadilələr həyata keçirilmişdir ki, bu da həmin ölkələr arasında daha yaxın əlaqələrin və əməkdaşlığın yaranmasına gətirib çıxarır.

- Gürcüstanın Məlumatların Qorunması Agentliyinin potensialı gücləndirilmişdir. Layihə çərçivəsində təqdim edilən biliklər əsasında, Gürcüstanın məlumatların qorunmasına dair qanunvericiliyi Avropa Şurasının standartlarına uyğun olaraq yenidən işlənmişdir;
- Moldovanın Məlumatların Qorunması Agentliyinin potensialı gücləndirilmişdir. Layihə çərçivəsində təqdim edilən biliklər əsasında, Moldovanın məlumatların qorunmasına dair qanunvericiliyinin layihəsi hazırlanmışdır;
- Layihə çərçivəsində Ermənistanın qanunvericiliyinə dair ekspert tövsiyələri verilmiş və Ermənistanın Məlumatların Qorunması üzrə Milli Agentliyinin yaradılmasına dair 2017-2021-ci illər üçün Strategiyanın layihəsi hazırlanmışdır;
- Şərq Tərəfdaşlığı ölkələrinin Məlumatların Qorunması Orqanları üçün təlim vəsaiti hazırlanmış və yayılmışdır;
- Mediada məxfiliyin qorunmasına dair rəhbər prinsiplər hazırlanmış və yayılmışdır;
- Belarusun hakimiyyət orqanlarına məlumatların qorunması üzrə milli qanunvericilik üçün konsepsiya sənədinin hazırlanmasında və məlumatların qorunması orqanının yaradılmasında dəstək verilmişdir. Avropa Şurasının ekspert dəstəyi əsasında, Belarusun hakimiyyət orqanları tərəfindən milli qanunvericilik aktı hazırlanacaqdır.

## Özünü tənzimləyən orqanların regional şəbəkəsi vasitəsilə peşəkar və məsuliyyətli jurnalistikanın təşviqi

Bu regional layihə özünü tənzimləmənin daha da gücləndirilməsi, jurnalistikanın etik və peşə standartlarının artırılması, və bütün altı Şərq Tərəfdaşlığı ölkəsinin mətbuat şuralarına (özünü tənzimləyən orqanlar) yönəlmiş regional mübadilə tədbirlərinin daha da gücləndirilməsi məqsədilə hazırlanmışdır.

- Regional özünü tənzimləyən orqanların şəbəkəsinin ildə iki dəfə keçirilən iclaslarının təşkilinə dəstək verməklə, Şərq Tərəfdaşlığı ölkələrinin özünü tənzimləyən orqanlarının institusional potensiallarının gücləndirilməsi;
- Regional mübadilə fəaliyyətləri Şəbəkə üzvlərinə Avropanın özünütənzimləmə sektorunda, habelə Avropa Şurası standartları və qabaqcıl təcrübələri sahəsində baş verən son yeniliklər barədə biliklərini artırmağa imkan vermişdir;
- Jurnalistlərin qeyri-etik davranışı iddiası ilə Şərq Tərəfdaşlığı ölkələrinin geniş ictimaiyyəti tərəfindən edilən transsərhəd şikayətlərə baxmaq səlahiyyəti verilən transsərhəd məsləhətçi orqanın/ Komissiyanın yaradılması vasitəsilə özünü tənzimləyən orqanlardan ibarət Şərq Tərəfdaşlığı şəbəkəsinin üzvlərinin potensialları gücləndirilmişdir.

► Bu layihə barədə məlumat bülletenınə keçid

## Seçki qanunvericiliyi və praktikası sahəsində islahatların aparılması, seçki məsələləri üzrə regional əməkdaşlığın inkişaf etdirilməsi

Şərq Tərəfdaşlığı ölkələrinin Mərkəzi Seçki Komissiyalarının düzgün və etibarlı seçkilər keçirmək potensialı regional və konkret ölkələrə aid təşəbbüslər vasitəsilə gücləndirilmişdir. Regional mübadilə fəaliyyətləri MSK üzvlərinə seçki proseslərinin fundamental aspektləri barədə biliklərini artırmağa imkan vermişdir. Bu məqsədlə, Venesiya Komissiyası tərəfindən Seçki İdarəetmə Orqanlarının iki Avropa Konfransı təşkil edilmişdir. Konfransların mövzuları "seçkilərdə bitərəfliyi, qərəzsizliyi və şəffaflığı necə təmin etməli" və "demokratik seçkilər üçün operativ seçki idarəetmə orqanları" olmuşdur.

Seçki proseslərində hər iki cinsin nümayəndələrinin iştirakını artırmaq məqsədilə, layihə çərçivəsində beş tərəfdaş ölkənin Mərkəzi Seçki Komissiyalarının iştirakı ilə gender bərabərliyinə dair çoxtərəfli konfrans da təşkil edilmişdir. Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova Respublikası və Ukraynanın Mərkəzi Seçki Komissiyalarının nümayəndələri, eləcə də parlamentariləri və vətəndaş cəmiyyəti nümayəndələri Avropa Şurasının Parlament Assambleyası və Venesiya Komissiyası tərəfindən "media azadlığı demokratik seçkilərin təməli kimi" mövzusunda birgə təşkil edilmiş konfransda aparılmış fikir mübadilələri vasitəsilə (azad) media və seçkilər sahəsində öz biliklərini artırmışdır.

Yerli müşahidəçilər üçün keçilmiş regional təlim, habelə ingilis dili ilə yanaşı Ukrayna, Moldova Respublikası, Gürcüstan və Ermənistanın yerli dillərində versiyaları mövcud olan və 1000-dən artıq yerli müşahidəçi arasında paylanmış "Beynəlxalq seçki standartlarından istifadə" və "Seçkilərə dair hesabatların verilməsi" adlı iki kitabça Şərq Tərəfdaşlığı ölkələrində yerli seçki müşahidəçiliyinin peşəkarlığının Avropa standartları əsasında artırılmasına kömək etmişdir. Bundan əlavə, Avropa Şurasının Təlimat Kitabçalarına əsaslanan elektron öyrənmə kursu hazırda təkcə seçki müşahidəçiləri tərəfindən deyil, həm də seçki sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatları və seçki mövzusunda biliklərini artırmaqda maraqlı olan şəxslər tərəfindən istifadə olunur (2017-ci ilin iyul-avqust ayları: 105 istifadəçi, 29 sertifikat).

"Şərq Tərəfdaşlığı ölkələrində qadınların siyasi həyatda təmsil olunmasına dair regional tədqiqat" dərc edilmiş və Şərq Tərəfdaşlığı ölkələrində seçki sahəsindəki 1700 maraqlı tərəf arasında yayılmışdır. Bu tədqiqat qadınların siyasi iştirakçılığının artırılmasına yönəlmiş layihələr üçün əsas və ictimai müzakirələr üçün resurs kimi istifadə olunmaqla yanaşı, qadınların siyasi imkanlarının genişləndirilməsini və siyasi fəaliyyətdə iştirakını

məhdudlaşdıran əsas maneələri müəyyən edir, habelə qabaqcıl təcrübələri və nümunələri araşdırır. Tədqiqat Azərbaycan, erməni, ingilis, gürcü, rumın və ukrayn dillərində mövcuddur.

Dörd regional konfransın gedişində, təxminən 400 iştirakçı öyrənilmiş dərslər və qabaqcıl təcrübələr haqqında fikir mübadiləsi aparmış və siyasətdə gender bərabərliyinin, beynəlxalq seçki müşahidə missiyalarının tövsiyələrinin icrasının, habelə siyasətdə pulla bağlı şəffaflıq və nəzarətin necə daha da yaxşılaşdırılması ilə bağlı tövsiyələr hazırlamışdır.

► Bu layihə barədə məlumat bülleteninə keçid

## Yerli idarəetmə üçün institusional bazanın gücləndirilməsi

Bu Layihə vasitəsilə Şərq Tərəfdaşlığı ölkələrinə öz yerli inzibati dövlət orqanlarını "Yerli Özünü İdarəetmə haqqında Avropa Xartiyası"na uyğun olaraq daha şəffaf, səmərəli və inklüziv formada təşkil etməkdə dəstək verilmişdir. Yüksək etik standartları təşviq etməklə, Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova Respublikası və Ukraynadan olan merlər öz həmkarları ilə vətəndaşlara yönəlmiş siyasətlərin işlənib hazırlanmasının praktiki alətləri və metodlarına dair fikir mübadiləsi aparmışdır. Bu ölkələri təmsil edən on iki bələdiyyəyə etik idarəçilik və şəffaflığa dair yerli təşəbbüslərin həyata keçirilməsində dəstək verilmişdir ki, bu da yerli demokratiya və ictimai xidmətlərin keyfiyyətinin artmasına gətirib çıxaracaqdır.

Ermənistan, Gürcüstan, Moldova Respublikası və Ukrayna üçün konkret ölkələrə aid olan dörd ədəd "Şəffaflıq və vətəndaş iştirakçılığına dair Təlimat  Kitabçası" yerli və regional hakimiyyət orqanlarına icmaların daha açıq, etik və vətəndaşyönümlü olmasını təmin etmək istiqamətindəki səylərində dəstək verilməsini nəzərdə tutur. Təlimat  kitabçaları qeyd olunan dörd ölkədə milli qanunvericilik bazaları barədə qısa məlumat verir, habelə korrupsiya risklərinin qarşısının alınması və şəffaflığa və vətəndaş iştirakçılığına dair mexanizmlərin həyata keçirilməsi ilə bağlı praktiki tövsiyələr təqdim edir.

"Dəyişikliklərin idarə olunmasına dair Bələdçi Vəsait" icmalarının tələb və ehtiyaclarına uyğunlaşdırılmış siyasətlər hazırlamaqla idarəçiliyin daha məlumatlı şəkildə aparılmasını təmin etmək məqsədilə yerli hakimiyyət orqanları üçün mərhələli təlimatları təqdim edir. Bələdçi vəsait dəyişikliklərin qiymətləndirilməsinə, habelə yerli siyasətlərin effektivliyinin və operativliyinin ölçülməsinə dəstəyi təmin edir. Bu nəşr ingilis, erməni, gürcü, rumın və ukrayn dillərində mövcuddur.

Bundan əlavə, təcrübə icması - yaxşı idarəçilik və vətəndaş iştirakçılığı üzrə ekspertləri, eləcə də yerli və regional hakimiyyət orqanlarının assosiasiyalarının nümayəndələrini əhatə edən şəbəkə yaradılmışdır. Şəbəkə müntəzəm görüşlər keçirmək yolu ilə, xüsusilə də ərazi islahatları kontekstində yerli demokratiya ilə bağlı çağırışlara dair fikir mübadiləsinin aparılması, eləcə də yerli hakimiyyət orqanlarının milli assosiasiyalarına qanunvericilik bazasının təkmilləşdirilməsinə öz töhfələrini verməkdə dəstək göstərilməsi üçün faydalı platforma rolunu oynayır. Nəticələrə regional əməkdaşlığın artırılması məqsədilə, Gürcüstan, Moldova Respublikası və Ukraynanın yerli və regional hakimiyyət orqanlarının milli assosiasiyaları arasında anlaşma memorandumunun imzalanması daxildir.

Yerli icmalara göstərilən xidmətlərin təkmilləşdirilməsinə kömək etmək məqsədilə, layihə vasitəsilə həmçinin ayrı-ayrı ölkələrin yerli inkişaf potensialının gücləndirilməsi üçün praktiki alətlər olan bələdiyyələrarası əməkdaşlıq və yerli maliyyənin müqayisəli təhlili sahələrinin inkişafı təşviq olunmuşdur. Milli hakimiyyət orqanlarına konkret tövsiyələr ünvanlanmışdır; bələdiyyə səviyyəsində isə, layihə bələdiyyələrarası əməkdaşlığın təşviqi məqsədilə beş yerli təşəbbüsün maliyyələşdirilməsini təmin etmişdir ki, bu da su təchizatı və kanalizasiya, tullantıların idarə olunması, yollara texniki xidmət və turizm sahələrində xidmət keyfiyyətinin artırılmasına gətirib çıxaracaqdır. Layihə çərçivəsində yerli inzibati orqanların maliyyə idarəçiliyinin

təkmilləşdirilməsi məqsədilə Ermənistan, Gürcüstan və Moldova Respublikasında 50 bələdiyyəyə dəstək göstərilmişdir. Yerli maliyyənin müqayisəli təhlili sahəsindəki innovativ alətlərdən davamlı istifadəni təmin etmək məqsədilə, layihə çərçivəsində milli inzibati orqanlarla tərəfdaşlıq şəraitində informasiya texnologiyalarına aid konkret proqram təminatının, eləcə də xüsusi ayrılmış portalların hazırlanması dəstəklənmişdir. Digər dəstək tədbirlərinə nümunə kimi Qaqauz Muxtar Vilayətinin hakimiyyət orqanlarına qanunvericilik təşəbbüslərinin və hüquqi rəylərin hazırlanmasında yardımın göstərilməsini, Belarusun regional və yerli hakimiyyət orqanları ilə rəhbərlik, planlaşdırma və hesabatlılıq məsələlərində əməkdaşlığı misal olaraq göstərmək olar.

► Bu layihə barədə məlumat bülleteninə keçid

**Daha ətraflı məlumat üçün**: http://partnership-governance-eu.coe.int

**Əlaqələndirici şəxs:** Nichola Howson, mətbuat katibi, +33 388 41 22 39 **Sentyabr, 2018-ci il**